ResearchGate

See discussions, stats, and author profiles for this publication at: https://www.researchgate.net/publication/338772614

# The analyzing of Azerbaijani pupils results of PIRLS 2016

**Article** *in* Azerbaijan Journal of Educational Studies · January 2019

DOI: 10.29228/edu.38

CITATIONS
0

READS
10

**1 author:**

Elza Semedova
Khazar University

**9** PUBLICATIONS **0** CITATIONS

SEE PROFILE

**Some of the authors of this publication are also working on these related projects:**

Project “Global Education” I International Symposium on Educational Sciences View project

All content following this page was uploaded by Elza Semedova on 21 January 2022.

The user has requested enhancement of the downloaded file.

# Azərbaycanlı şagirdlərin PİRLS-2016 nəticələrinin təhlili

Müəllif **Elza Səmədli**
Dosent, Xəzər Universiteti, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı. E-mail: esemedova@khazar.org
https://orcid.org/0000-0002-3831-3112

Annotasiya Oxu, fərdin idraki, emosional, psixomotor bacarıqları olmaqla yanaşı, insanların anadangəlmə deyil, təhsilalma prosesində əldə etdikləri sosial bir ehtiyacdır. Həmçinin, fərdin dünyagörüşünə, bilik səviyyəsinə, ünsiyyətinə, idraki bacarıqlarına birbaşa təsir edən aktiv bir fəaliyyətdir. Bu baxımdan, oxuduğunu anlamaq və oxu savadlılığı beynəlxalq səviyyədə əhəmiyyətli hesab edilən və yoxlanılan bacarıqlardandır. Oxu savadlılığını yüksəltmək inkişaf etmiş ölkələrin təhsil siyasətində riyazi savadlılıqla birlikdə milli səviyyədə inkişaf etdirilməsi nəzərdə tutulan strateji hədəflərdən biridir. Bu sahə ölkəmizdə də milli prioritetlərdən birini təşkil etməkdədir. Bu mənada Azərbaycanın 2006 və 2009-cu illərdə PİSA, 2011-ci ildə TİMSS və PİRLS, 2016-cı ildə yenidən PİRLS beynəlxalq qiymətləndirmə imtahanlarında iştirak etməsi və Təhsil Nazirliyi tərəfindən müəllimlərin bu istiqamətdə ixtisasartırma kurslarına cəlb olunması təqdirəlayiqdir. Bu araşdırmanın məqsədi də azərbayacanlı şagirdlərin 2016-cı ildə iştirak etdiyi PİRLS imtahanının dörd səviyyə üzrə (aşağı, orta, yuxarı və yüksək) qiymətləndirmə meyarları ilə ibtidai təhsil səviyyəsində «Azərbaycan dili» fənninin məzmun standartlarının müqayisəli təhlilini apararaq, azərbaycanlı şagirdlərin nümayiş etdirdiyi nəticələri təhlil etmək, oxu savadlılığı baxımından formalaşmış və inkişaf etdirilməyə ehtiyac duyulan bacarıqlarına diqqəti yönəltməkdir. Məqalədə tədqiqat metodu olaraq keyfiyyət (qualitative) araşdırma metodundan istifadə edilərək rəsmi sənədlər, «Azərbaycan dili» fənninin kurikulumu, hesabatlar, PİRLS qiymətləndirmə standartları üçün əlaqədar internet resurslarının incələnməsi yolu izlənilmişdir.

Açar sözlər PİRLS, oxu savadlılığı, kurikulum, Azərbaycan dili, məzmun standartları.

DOI: 10.32906/AJES/686/2019.01.35
Məqaləyə istinad: Səmədli E. (2019) *Azərbaycanlı şagirdlərin PİRLS-2016 nəticələrinin təhlili.* «Azərbaycan məktəbi». № 1 (686), səh. 11–23.

Məqalə tarixçəsi: Göndərilib — 04.01.2019; Qəbul edilib — 09.04.2019

# The analyzing of Azerbaijani pupils results of PIRLS 2016

Author **Elza Semedli**
Assoc. Prof. Khazar University, Dean School of Humanities, Education and Social Sciences. E-mail: esemedova@khazar.org
https://orcid.org/0000-0002-3831-3112

Abstract As a cognitive, emotional and psychomotor ability, the reading not a skill that people gained from birth and it is developed by the educational process. It can be also defined as a social need for humans. It is an active activity that directly affects the individual's ability to communicate with the worldview, level of knowledge, and communication skills. However, reading ability doesn`t include only rapidity, accuracy, automaticity and prosody, reading comprehension is also the most crucial part of these skills. Reading comprehension and literacy is accepted as an important skill and assessed in different grades by the different international reading literacy studies, such as PISA and PIRLS. Increasing reading literacy is one of the strategic goals besides the mathematical lliteracy for developed countries to improve at the national level in their educational policies. To improve reading literacy is also one of the national priorities in Azerbaijan. Azerbaijan has twice participated to PIRLS in 2011 and 2016. In this study is aimed to provide the comparative analysis between content standards of Azerbaijan language courses at elementary education and the PIRLS international benchmarks of reading achievement. The main purpose of the investigated study is to analysing and drawing the attention to the reading literacy abilities by Azerbaijani pupils which are needed to develop and which need to improve.

Keywords PIRLS, reading literacy, curriculum, Azerbaijani language, content standards.

DOI: 10.32906/AJES/686/2019.01.35
To cite this article:
Semedli E. (2019) *The analyzing of Azerbaijani pupils results of PIRLS 2016.* Azerbaijan Journal of Educational Studies. Vol. 686, Issue I, pp. 11–23.

Article history: Received — 04.01.2019; Accepted — 09.04.2019

## Giriş

Oxu, fərdin idraki, emosional, psixomotor bacarıqlarına bağlı, insanların anadangəlmə deyil, təhsilalma prosesində əldə etdikləri bacarıq olmaqla yanaşı, eyni zamanda sosial bir ehtiyacdır. Fərdin dünyagörüşünə, bilik səviyyəsinə, ünsiyyətinə idraki bacarıqlarına birbaşa təsir edən aktiv bir fəaliyyətdir. Bu bacarıq sadəcə sürətli və ifadəli oxu (prozodi, vurğu, ton, pauza, ritm və s.) (Kuhn, Schüannenflugel və Meisinger 2010) ilə məhdudlaşmır, eyni zamanda oxuduğunu anlamaq, şərh etmək, ilkin bilikləri ilə əlaqələndirərək nəticə çıxarmaq, mühakimə yürütmək və ya tənqidi münasibət göstərmək kimi mühüm bacarıqların formalaşmasına da birbaşa təsir edir. Bu baxımdan, oxuduğunu anlamaq və oxu savadlılığı beynəlxalq səviyyədə əhəmiyyətli hesab edilən və yoxlanılan bacarıqlardandır.

Oxu savadlılığını yüksəltmək inkişaf etmiş ölkələrin təhsil siyasətində riyazi savadlılıqla birlikdə milli səviyyədə inkişaf etdilirməsi nəzərdə tutulan strateji hədəflərdən biridir. Ölkəmizdə də bu sahə milli prioritetlərdən birini təşkil etməkdədir. Bu mənada Azərbaycanın 2006 və 2009-cu illərdə PİSA, 2011-ci ildə TİMSS və PİRLS, 2016-cı ildə yenidən PİRLS beynəlxalq qiymətləndirmə imtahanlarında iştirak etməsi və Təhsil Nazirliyi tərəfindən müəllimlərin peşəkar hazırlığı istiqamətində ixtisasartırma kurslarına cəlb olunması təqdirəlayiqdir.

Dördüncü siniflərdə (10-11 yaşlı şagirdlər arasında) oxu bacarığının və oxu məqsədlərinin ölçüldüyü PİRLS imtahanlarının nəticəsinə görə Azərbaycan 2011-ci ildə 462, 2016-cı ildə isə 472 balla 50 ölkə arasında dünya üzrə orta baldan (500 bal) aşağı yer tutmuşdur.[1]

Bu imtahanların nəticələrinin müqayisəli təhlilinə dair hesabatdakı məlumata görə Azərbaycan eyni orta göstəriciyə sahib olan 13 ölkədən biridir (Martin&Mullis 2017;17, 31). İmtahan nəticəsinin təhlilindəki maraqlı məqamlardan biri gender baxımından dünya göstəricilərinə görə qız şagirdlərin oğlan şagirdlərdən 19 bal daha yüksək nəticə göstərmələridir. İmtahanlarda iştirak edən Azərbaycanlı şagirdlərin 47%-ni təşkil edən qızların 479 bal, 53%-ni təşkil edən oğlanların isə 466 bal topladıqları və 13 bal fərqlə qızların öndə olduqları müəyyən olmuşdur (Martin&Mullis 2017;36).

Bu araşdırmanın məqsədi Azərbayacanlı şagirdlərin 2016-cı ildə iştirak etdiyi PİRLS imtahanının dörd səviyyə üzrə (aşağı, orta, yuxarı və yüksək) qiymətləndirmə meyarları ilə ibtidai təhsil səviyyəsində «Azərbaycan dili» fənninin məzmun standartlarının müqayisəli təhlilini apararaq, azərbaycanlı şagirdlərin nümayiş etdirdiyi nəticələri təhlil etmək, oxu savadlılığı baxımından formalaşmış və inkişaf etdirilməyə ehtiyac duyulan bacarıqlarına diqqəti yönəltməkdir.

Məqalədə tədqiqat metodu olaraq keyfiyyət (qualitative) araşdırma metodundan istifadə edilərək rəsmi sənədlər, «Azərbaycan dili» fənninin kurikulumu,

[1] http://timssandpirls.bc.edu/pirls2016/ international-results/

hesabatlar, PİRLS qiymətləndirmə standartları üçün əlaqədar internet resurslarının incələnməsi yolu izlənilmişdir.

Tədqiqatın sualları aşağıdakı kimi müəyyən edilmişdir:

1. «Azərbaycan dili» fənninin kurikulumunda ibtidai təhsil səviyyəsində nəzərdə tutulan oxu məzmun xətti üzrə alt standartlar PİRLS imtahanında aşağı səviyyə üzrə sadə mətnlərdə gözlənilən oxu bacarıqları formalaşdırmağa nə dərəcədə uyğundur?
2. «Azərbaycan dili» fənninin kurikulumunda ibtidai təhsil səviyyəsində nəzərdə tutulan oxu məzmun xətti üzrə alt standartlar PİRLS imtahanında orta səviyyə üzrə nisbətən mürəkkəb mətnlərdə gözlənilən oxu bacarıqları formalaşdırmağa nə dərəcədə uyğundur?
3. «Azərbaycan dili» fənninin kurikulumunda ibtidai təhsil səviyyəsində nəzərdə tutulan oxu məzmun xətti üzrə alt standartlar PİRLS imtahanında yüksək səviyyə üzrə nisbətən mürəkkəb mətnlərdə gözlənilən oxu bacarıqları formalaşdırmağa nə dərəcədə uyğundur?
4. «Azərbaycan dili» fənninin kurikulumunda ibtidai təhsil səviyyəsində nəzərdə tutulan oxu məzmun xətti üzrə alt standartlar PİRLS imtahanında ən yüksək səviyyə üzrə nisbətən mürəkkəb mətnlərdə gözlənilən oxu bacarıqları formalaşdırmağa nə dərəcədə uyğundur?

«Azərbaycan dili» fənni üzrə təhsil proqramında (kurikulum) oxunun məqsədləri aşağıdakı kimi müəyyənləşdirilmişdir: «Oxu şagirdlərin dil duyumunun inkişafını, fikrin ifadə olunmasında sözün məna xüsusiyyətlərinin, cümlə və mətnin rolunun anlaşılmasını, lazımi vərdişlərin məqsədyönlü şəkildə təkmilləşdirilməsini, dilin gözəlliyinə, üslubi imkanlarının zənginliyinə şagirdlərin maraq və məhəbbətinin formalaşmasını təmin edir. Bu məzmun xətti müxtəlif üslublarda yazılmış mətnlərin məzmun və struktur elementlərinin müstəqil qavranılmasına imkan yaradır, ana dilinə, bu dildə yazılmış elmi-kütləvi və ədəbi-bədii nümunələrə marağı dərinləşdirməyə, ümumi nitq mədəniyyətinin inkişafı üçün lüğət ehtiyatını daha da zənginləşdirməyə xidmət edir».

Təhsil proqramında ifadə edilən bu məqsəd ibtidai təhsil səviyyəsi üzrə 2 əsas, 33 alt standartda (1-ci sinifdə 9, 2, 3, 4-cü siniflərdə 8 alt standart olmaq üzrə) öz əksini tapmışdır. Bu iki əsas standartdan biri 1-ci sinifdən 4-cü sinifə qədər *2.1. Qarşılaşdığı yeni sözlərin mənasını başa düşdüyünü nümayiş etdirir,* ikincisi isə 1-ci sinifdə *2.2. Oxu texnikası və ilkin oxu bacarıqlarına yiyəyəndiyini nümayiş etdirir,* 2-ci və 3-cü sinifdə *2.2. Oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir,* 4-cü sinifdə *2.2. Oxu vərdişlərinə yiyələndiyini nümayiş etdirir* şəklində müəyyənləşdirilmişdir.

İbtidai siniflərdə oxu məzmun xətti üzrə 2.1. əsas və buna bağlı alt standartlarda əsasən, yeni əşya və hadisələrin adlandırılması, yeni sözlərin mənasının müəyyənləşdirilməsi, izah edilməsi, fərqləndirilməsi, 2.2. əsas və buna bağlı alt standartlarda düzgün, sürətli və intonasiyalı oxu, mətnin məzmununu nəqletmə, mətnin müxtəlif (şəkilli, geniş, yaradıcı) planını tutma, əsas fikri müəyyənləşdirmə kimi idraki bacarıqlar nəzərdə tutulmuşdur (Ümumi təhsilin məzmun standartları, Bakı 2012, s. 12-18).

Oxunun mətnlə oxuyucu arasında interaktiv bir fəaliyyət olaraq təsvir edildiyi PİRLS-də isə oxu məqsədləri, əsasən, 2 istiqamətdə müəyyən edilmişdir.

1. Oxu təcrübəsi qazanmaq üçün oxu;
2. Məlumata tənqidi yanaşma və məlumatdan istifadə etmək üçün oxu (Martin&Mullis 2017, 49).

İmtahanın ölçdüyü idraki bacarıqlar isə oxuduğunu anlama istiqamətində 4 idraki prosesi əhatə edir:

1. Xatırlama;
2. Birbaşa nəticə çıxarma;
3. Şərhetmə və əlaqələndirmə;
4. Dəyərləndirmə və tənqidi yanaşma.

Məzmun etibarilə 10 ədəbi, 10 informativ mətndən ibarət olan, 2016-cı ildə keçirilən PİRLS imtahanında həmin 20 mətndən 8-i ənənəvi oxuma-anlamaya, 4-ü həm ənənəvi, həm oxu savadlılığını, 8-i isə sadəcə oxu savadlılığını ölçməyə yönəlmişdir.

PİRLS imtahanındakı ədəbi mətnlər illüstrasiyalarla dəstəklənmiş qısa hekayələrdən və ya epizodlardan ibarətdir. Bu mətnlər təxminən 500 sözdən ibarət olmaqla məna baxımından aydın və sadə quruluşlu hekayələrdir. 10 ədəbi mətn müasir və ənənəvi mətndən ibarətdir. Mətnlər, əsasən, bir mövzu və ya informasiya ətrafında cərəyan edən bir-iki əsas hadisədən və ya bir-iki əsas xarakterdən ibarət süjet xətti əsasında qurulur. Mətnlərin dili gündəlik istifadə olunan sözlərdən və birbaşa məna çıxarılan cümlə quruluşundan ibarətdir. Nisbətən kompleks mətnlər, təxminən 800 söz həcmində olub, süjet xətti qoşa xarakterlər və bu xarakretlərin inkişaf etdirilərək, məna qatlarının kəşf olunması çərçivəsində qurulur. Mətnin abzasları dialoq, yumor, hekayə kimi müxtəlif üslublardan ibarətdir (Martin&Mullis 2017, 51).

Məlumatlandırıcı mətnlər bioqrafiya, əsaslandırıcı esse (persuasive essay), təlimat, müzakirələr və s. formatından ibarət olur. Məlumatlandırıcı mətnlərdə müxtəlif illüstrasiyalar, diaqramlar, xəritələr, şəkillər və ya cədvəllər kimi təqdimedici elementlər olur. Bu mətnlər elmi, etnoqrafik, bioqrafik, tarixi məlumatları əhatə edir. Mətnlər quruluş baxımından müxtəlif olur. Məsələn, məlumatlar alt başlıqlarla və ya kiçik qutular içində verilir. Bu mətnlər də, təxminən 400-500 sözdən ibarət, məna baxımından aydın və sadə quruluşludur. Nisbətən kompleks (mürəkkəb) mətnlər 600-900 sözdən ibarət olmaqla, konseptual olaraq daha çox diqqət tələb edir, bəzi parçalar sətraltı detalları, vacib rəqəmləri, xülasələri və texniki ideyaları əhatə edir. Məlumatlandırıcı mətnlərdə mürəkkəb cümlə quruluşları və tanış olmayan sözlər ola bilər (Martin&Mullis 2017, 51).

PİRLS imtahanı bu 4 idraki prosesi 4 beynəlxalq səviyyə (International Benchmarks) üzrə yoxlayır. *Cədvəl 1*-də hər səviyyə üzrə 4-cü sinif şagirdindən gözlənilən bacarıqlar meyarlar şəklində təsvir olunmuşdur. Azərbaycanlı şagirdlərin bu səviyyələr üzrə əldə etdikləri nəticələr *Cədvəl 2*-də öz əksini tapmışdır.

Cədvəl 1. **(Martin&Mullis 2017, 52-53)**

| | | |
|---|---|---|
| **625** | **Ən yüksək səviyyə** | Nisbətən mürəkkəb ədəbi mətnləri oxuduğu zaman şagird bacarmalıdır: |
| | | — hekayəyə əsaslanaraq obrazların səciyyəvi xüsusiyyətlərini, hisslərini, motivsiyalarını və hadisələrin səbəblərini təsvir etmək üçün obrazların hərəkətlərini və hekayədəki hadisələri şərh etməyi;<br>— müəllifin dil və üslubi xüsusiyyətlərinin oxucu üzərindəki təsirini dəyərləndirməyi. |
| | | Nisbətən mürəkkəb məlumatlandırıcı mətnləri oxuduğu zaman şagird bacarmalıdır: |
| | | — mətnə əsaslanaraq, mətnin müxtəlif hissələrindəki kompleks məlumatı şərh etməyi və fərqləndirməyi;<br>— hadisələrin ardıcıllığını və əlaqələrini açıqlamaq üçün mətndəki məlumatları əlaqələndirməyi;<br>— müəllifin mövqeyini müəyyənləşdirmək üçün mətndəki yazılı və vizual elementləri dəyərləndirməyi. |
| **550** | **Yüksək səviyyə** | Nisbətən mürəkkəb ədəbi mətnləri oxuduğu zaman şagird bacarmalıdır: |
| | | — mətndə sətraltı verilmiş detalları və mühüm məqamları müəyyənləşdirməyi və fərqləndirməyi;<br>— mətndəki hadisələr, məqamlar, məqsədlər arasındakı əlaqələri açıqlamaq üçün məna çıxarmağı və bunlara dair mətndən nümunələr verməyi;<br>— hekayədəki hadisələri, obrazların xarakterlərini, mətndəki səciyyəvi xüsusiyyətlərini, hiss və duyğularını əlaqələndirməyi və şərh etməyi;<br>— mətnin məsələn, bənzətmə, obrazlılıq kimi bəzi dil xüsusiyyətlərini xatırlamağı. |
| | | Nisbətən mürəkkəb məlumatlandırıcı mətnləri oxuduğu zaman şagird bacarmalıdır: |
| | | — qarışıq cədvəllər və anlaşılması çətin mətnlərdəki məlumatları ayırd etdirməyi və müəyyənləşdirməyi;<br>— məlumatla əlaqədar səbəbləri göstərmək və izahatlar vermək üçün məntiqi əlaqələr quraraq nəticə çıxarmağı;<br>— ideyalar arasındakı əlaqələri şərh etmək üçün vizual və mətndəki məlumatları əlaqələndirməyi;<br>— məzmun və mətn xüsusiyyətlərini ümumiləşdirməyi və dəyərləndirməyi. |
| **475** | **Orta səviyyə** | Sadə və nisbətən mürəkkəb ədəbi mətnləri oxuduğu zaman şagird bacarmalıdır: |
| | | — mətndə açıqca ifadə olunmuş hiss, hadisə və məqamları xatırlamağı, müstəqil şəkildə təyin etməyi və ortaya çıxarmağı;<br>— mətndəki atributlardan, hislər və əsas obrazların motivasiyalarından birbaşa məna çıxarmağı;<br>— bariz səbəb-nəticələri şərh etməyi, faktları xatırlamağı və nümunələr verməyi;<br>— mətnin dil xüsusiyyətlərini (frazeoloji birləşmələr, çoxmənalılıq və s.) xatırlamağı. |
| | | Sadə və nisbətən mürəkkəb məlumatlandırıcı mətnləri oxuduğu zaman şagird bacarmalıdır: |
| | | — mətndəki məlumatın 2 və ya 3 hissəsini təyin edib ortaya çıxarmağı;<br>— faktlara əsaslanan izahatlar vermək üçün mətndən birbaşa nəticə çıxarmağı;<br>— məlumatları hadisələrə görə uyğunlaşdırıb şərh etməyi. |

| | | |
|---|---|---|
| **400** | **Aşağı səviyyə** | Sadə ədəbi mətnləri oxuduğu zaman şagird bacarmalıdır: |
| | | — mətndə açıq ifadə olunmuş məlumatı, davranış və məqamları və ya ideyanı təyin etməyi və ya xatırlamağı;<br>— mətndə baş verən hadisələr, hərəkət və davranışların səbəbi haqqında birbaşa nəticə çıxarmağı;<br>— hekayədəki hadisələri və əsas ideyaları şərh etməyi. |
| | | Sadə məlumatlandırıcı mətnləri oxuduğu zaman şagird bacarmalıdır: |
| | | — açıq şəkildə ifadə olunmuş məlumatın mətində və ya diaqram, cədvəl, sxem və s. formada müəyyənləşdirməyi;<br>— mətndəki açıqlamalar, hərəkətlər və təsvirlər haqqında birbaşa nətcə çıxarmağı. |

Cədvəl 2. **(Martin&Mullis 2017, 55)**

| **PİRLS səviyyələr** | **Ən yüksək səviyyə** (625 bal) | **Yüksək səviyyə** (550 bal) | **Orta səviyyə** (475 bal) | **Aşağı səviyyə** (400 bal) |
|---|---|---|---|---|
| **Azərbaycanlı şagirdlərin nailiyyətləri** | 2 (0.3) | 18 (1.1) | 54 (2.0) | 81 (1.7) |
| **Beynəlxalq median** | 10 | 47 | 82 | 96 |

Cədvəl 2-dən də göründüyü kimi, ən yüksək səviyyə üzrə beynəlxalq ortalama 10 olduğu halda, Azərbaycan üzrə 5 dəfə az — 2, yüksək səviyyə üzrə beynəlxalq ortalama 47 ikən, Azərbaycan üzrə təxminən 2.5 dəfə az — 18, orta səviyyə üzrə beynəlxalq ortalama 82 ikən, Azərbaycan üzrə 54, aşağı səviyyə üzrə beynəlxalq ortalama 96 olduğu halda Azərbaycan üzrə 81-dir. Bu nəticə Azərbaycanlı şagirdlərin orta və aşağı səviyyədə belə beynəlxalq orta göstəricidən aşağı nəticə əldə etdiyini göstərir.

Yuxarıda qeyd etdiyimiz kimi, PİRLS imtahanı, əsasən, xatırlama, birbaşa nəticəçıxarma, şərhetmə, əlaqələndirmə, dəyərləndirmə və tənqidi yanaşma bacarıqlarının səviyyəsini ölçür. Şagirdlərin əldə etdikləri nəticələr ibtidai siniflər üzrə oxu məzmun standartlarının formalaşdırdığı bacarıqlarla bilavasitə əlaqədardır. Bu əlaqənin müəyyən edilməsi üçün PİRLS imtahanının ölçdüyü idraki proseslərin və hər səviyyə üzrə 4-cü sinif şagirdindən gözlənilən bacarıqların Azərbaycandakı ümumi təhsilin I-IV siniflərində «Azərbaycan dili» fənni üzrə oxu standartlarında nəzərdə tutulan məzmun və bacarıqlarla müqayisə edilməsi və məzmun standartlarına uyğunlaşdırılması şagirdlərin nəticələrinin yüksəldilməsi üçün vacib amillərdən biridir.

Araşdırmanın tədqiqat sualları olan PİRLS imtahanında yoxlanılan səviyyələr üzrə idraki bacarıqlarla «Azərbaycan dili» fənninin proqramında ibtidai təhsil səviyyəsində nəzərdə tutulmuş oxu məzmun standartlarının müqayisəli cədvəlləri (3, 4, 5) və təhlillər verilmişdir.

Cədvəl 3. **PİRLS aşağı səviyyə üzrə sadə mətnlərdə gözlənilən oxu bacarıqlarının ibtidai təhsil səviyyəsi üzrə oxu alt standartları ilə müqayisəsi**

| PİRLS aşağı səviyyə üzrə sadə mətnlərdə gözlənilən bacarıqlar | 1-ci sinif | 2-ci sinif | 3-cü sinif | 4-cü sinif |
|---|---|---|---|---|
| Ədəbi mətndə açıq ifadə olunmuş məlumatı, davranış və məqamları, ideyanı təyin edir və ya xatırlayır | 2.2.4. Mətndəki əsas fikri müəyyənləşdirir və sadə formada ifadə edir | | | |
| Məlumatlandırıcı mətndə və ya diaqram, cədvəl, sxem və s. müxtəlif formada açıq şəkildə verilən məlumatı xatırlayır və müəyyənləşdirir | | | | |
| Ədəbi mətndə baş verən hadisələr, hərəkət və davranışların səbəbi haqqında birbaşa nəticə çıxarır | | | | |
| Məlumatlandırıcı mətndəki açıqlamalar, hərəkətlər və təsvirlər haqqında birbaşa nətcə çıxarır | | | | |
| Hekayədəki hadisələri və əsas ideyaları şərh edir | | | | 2.2.4. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir |

Cədvəl 3-ü təhlil etdikdə, PİRLS-də aşağı səviyyədə oxu məqsədi və oxuduğunu anlama bacarığını ölçən 5 meyardan sadəcə birinin 1 və 4-cü siniflər üzrə nəzərdə tutulan oxu alt standartları ilə qismən uyğunlaşdığı (1-ci və 4-cü sinifdəki 2.2.4. alt standartı) məlum olur. PİRLS-də aşağı səviyyədəki digər 4 meyarın isə Azərbaycan dilindən oxu alt standartlarında əhatə olunmadığı görünür. Cədvəldən də aydın olduğu kimi, 2 və 3-cü siniflərın oxu standartlarında PİRLS imtahanında aşağı səviyyədə ölçülən mətndəki əsas hadisələr və ideyaların şərh olunması, oxunan mətndən müxtəlifyönlü nəticələr çıxarılması kimi oxuduğunu anlamağa yönələn bacarıqların formalaşdırılması nəzərdə tutulmamışdır.

1-ci sinifdəki 2.2.5. *(Mətnin məzmunu nəql edir)* standartı ilə 2-ci sinifdəki 2.2.4. *(Mətnin əsas hissələrini seçib nəql edir)* standartları da *2.2. Oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir* əsas standartına bağlı olaraq idraki proses baxımından xatırlama səviyyəsində olmasına baxmayaraq, oxuduğunu anlama bacarığından daha çox nəqletmə fəaliyyəti ilə danışma bacarığını inkişaf etdirməyə istiqamətlənmişdir.

PİRLS imtahanında orta səviyyədə ölçülən oxu bacarığını qiymətləndirmə meyarları ilə ibtidai siniflər üzrə oxu standartlarının müqayisəli təhlili göstərir ki, sadəcə mətnin dil xüsusiyyətləri ilə əlaqədar meyar «Azərbaycan dili» fənni üzrə (ibtidai təhsil səviyyəsi) standartlarla uyğunluq təşkil edir. Oxuduğunu

Cədvəl 4. **PİRLS orta səviyyə sadə və nisbətən mürəkkəb mətnlər üzrə gözlənilən oxu bacarıqlarının ibtidai təhsil səviyyəsi üzrə oxu alt standartları ilə müqayisəsi**

| PİRLS orta səviyyə üzrə gözlənilən oxu bacarıqları | 1-ci sinif | 2-ci sinif | 3-cü sinif | 4-cü sinif |
|---|---|---|---|---|
| Mətndə açıqca ifadə olunmuş hiss, hadisə və məqamları xatırlayır, müstəqil şəkildə təyin edir və ortaya çıxarır | | | | |
| Mətndəki atributlardan, hisslər və əsas obrazların motivasiyalarından birbaşa məna çıxarır | | | | |
| Mətndə açıq şəkildə ifadə olunan səbəb-nəticə əlaqələlərini şərh edir, faktları xatırlayır və mətndən nümunələr verir | | | | |
| Mətnin dil xüsusiyyətlərini (frazeoloji birləşmələr, çoxmənalılıq və s.) xatırlayır | 2.1.2. Mətndə müəyyən olunmuş sözləri yaxınmənalı sözlərin köməyi ilə izah edir | 2.1.2. Mətndə verilmiş yaxınmənalı və əksmənalı sözləri fərqləndirir. 2.2.2. Mətndəki frazeoloji ifadələrin mənasını izah edir. | 2.1.2. Mətndə çoxmənalı sözləri fərqləndirir. 2.1.3. Sözlərin həqiqi və məcazi mənasını fərqləndirir. | 2.1.2. Mətndə terminləri fərqləndirir. |
| Mətndəki məlumatın 2 və ya 3 hissəsini müəyyənləşdirir və ortaya çıxarır | | | | |
| Faktlara əsaslanan izahatlar vermək üçün mətndən birbaşa nəticə çıxarır | | | | |
| Məlumatları hadisələrə görə uyğunlaşdırır və şərh edir | | | | |

anlamağa dair meyarlarla oxu bacarığına yiyələnmə standartları birbaşa uyğunlaşmasa da, *«Mətndə açıqca ifadə olunmuş hiss, hadisə və məqamları xatırlayır, müstəqil şəkildə təyin edir və ortaya çıxarır»* meyarı 2-ci sinifdəki *2.2.3. Mətnin hissələrinə başlıqlar verməklə məzmuna aid sadə plan tutur,* 3-cü sinifdəki *2.2.3. Mətnin geniş planını tutur* alt standartları ilə qismən uyğunluq təşkil edir. Belə ki, bu standartların reallaşdırılması zamanı istifadə ediləcək 5N1H/K (**nə** — mövzu, **niyə** — məqsəd, **necə** — başvermə tərzi, **nə vaxt** — hadisələrin ardıcıllığı, **harada** — hadisələrin cərəyan etdiyi yer və kim — obrazların ortaya çıxarılması) mətn təhlili metodunun istifadəsi şagirdin oxuduğunu anlamasına

Cədvəl 5. **PİRLS yüksək səviyyə üzrə nisbətən mürəkkəb mətnlərdə gözlənilən oxu bacarıqlarının ibtidai təhsil səviyyəsi üzrə oxu alt standartları ilə müqayisəsi**

| PİRLS yüksək səviyyə üzrə gözlənilən oxu bacarıqları | 1-ci sinif | 2-ci sinif | 3-cü sinif | 4-cü sinif |
|---|---|---|---|---|
| Mətndə sətraltı verilmiş detalları və mühüm məqamları müəyyənləşdirir və fərqləndirir | | | | |
| Mətndəki hadisələr, məqamlar, hisslər, məqsədlər arasındakı əlaqələri açıqlamaq üçün məna çıxarır və bunlara dair mətndən nümunələr verir | | | | |
| Hekayədəki hadisələri, obrazların xarakterlərini, mətndəki səciyyəvi xüsusiyyətlərini, hiss və duyğularını əlaqələndirir və şərh edir | | | | 2.2.5. Mətnin ideyasını müəyyənləşdirir və obrazları sadə şəkildə səciyyələndirir |
| Mətnin, məsələn, tonlama, bənzətmə, obrazlılıq kimi bəzi dil xüsusiyyətlərini xatırlayır | | | | 2.1.3. Mətndəki obrazlı ifadələri fərqləndirir |
| Qarışıq cədvəllər və anlaşılması çətin mətnlərdəki məlumatları ayırd edir və müəyyənləşdirir | | | | |
| Məlumatla əlaqədar səbəbləri göstərmək və izahatlar vermək üçün məntiqi əlaqələr quraraq nəticə çıxarır | | | | |
| İdeyalar arasındakı əlaqələri şərh etmək üçün vizual və mətndəki məlumatları əlaqələndirir | | | | |
| Məzmun və mətn xüsusiyyətlərini ümumiləşdirir və dəyərləndirir | | | | |

və təhlil bacarığının formalaşmasına şərait yaradacaqdır.

Orta səviyyəli meyarların oxu məzmun standartları ilə müqayisəsi, ibtidai siniflər üzrə oxu alt standartlarının şagirdlərdə uyğunlaşdırma, şərhetmə, birbaşa nəticəçıxarma, mətnin hissələrini müəyyənləşdirmə, mətndən nümunəvermə və s. kimi bacarıqların formalaşmasına şərait yaratmadığını da göstərir.

Cədvəl 5-in təhlili göstərir ki, nisbətən mürəkkəb mətnlər üzrə *Mətnin, məsələn, bənzətmə, obrazlılıq kimi bəzi dil xüsusiyyətlərini xatırlayır* meyarı «Azərbaycan dili» fənninin kurikulumundakı 2.1.3. *Mətndəki obrazlı ifadələri fərqləndirir* alt standartı ilə qismən uyğunluq təşkil edir.

Cədvəl 6-nın təhlili göstərir ki, əslində, «Azərbaycan dili» fənninin proqramında ibtidai siniflər üçün nəzərdə tutulan oxu standartları PİRLS-in ən

Cədvəl 6. **PİRLS ən yüksək səviyyə üzrə nisbətən mürəkkəb mətnlərdə gözlənilən oxu bacarıqlarının ibtidai təhsil səviyyəsi üzrə oxu alt standartları ilə müqayisəsi**

| PİRLS ən yüksək səviyyə üzrə gözlənilən oxu bacarıqları | 1-ci sinif | 2-ci sinif | 3-cü sinif | 4-cü sinif |
|---|---|---|---|---|
| Hekayəyə əsaslanaraq obrazların səciyyəvi xüsusiyyətlərini, hisslərini, motivsiyalarını və hadisələrin səbəblərini təsvir etmək üçün obrazların hərəkətlərini və hekayədəki hadisələri şərh edir | | | | |
| Müəllifin dil və üslubi xüsusiyyətlərinin oxucu üzərindəki təsirini dəyərləndirir | | | | |
| Mətnə əsaslanaraq, mətnin müxtəlif hissələrindəki kompleks məlumatı şərh edir və fərqləndirir | | | | |
| Hadisələrin ardıcıllığını və əlaqələrini açıqlamaq üçün mətndəki məlumatları əlaqələndirir | | | | |
| Müəllifin mövqeyini müəyyənləşdirmək üçün mətndəki yazılı və vizual elementləri dəyərləndirir | | | | |

yüksək səviyyə üzrə ölçdüyü «oxuduğunu anlama» bacarıqları, qismən də olsa, «obrazların səciyyəvi xüsusiyyətlərini şərh edir» meyarı istisna olmaqla uyğunlaşmır.

## Nəticə və tövsiyələr

Tədqiqatın nəticələri göstərir ki, daha əvvəl də qeyd etdiyimiz kimi PİRLS imtahanı, əsasən, xatırlama, birbaşa nəticəçıxarma, şərhetmə və əlaqələndirmə, dəyərləndirmə və tənqidi yanaşma bacarıqlarını ölçür. Şagirdlərin əldə etdikləri nəticələr ibtidai siniflər üzrə oxu məzmun standartlarının formalaşdırdığı bacarıqlarla bilavasitə əlaqədardır. Bu əlaqənin müəyyən edilməsi üçün PİRLS imtahanının ölçdüyü idraki proseslərin və hər səviyyə üzrə 4-cü sinif şagirdindən gözlənilən bacarıqların ümumi təhsilin I-IV siniflərində «Azərbaycan dili» fənni üzrə oxu standartlarında nəzərdə tutulan məzmun və bacarıqlarla müqayisə edilməsi, məzmun standartlarının uyğunlaşdırılması şagirdlərin nəticələrinin yüksəldilməsi üçün vacib amillərdən biridir. Tədqiqatda PİRLS imtahanında yoxlanılan səviyyələr üzrə bacarıqlarla ibtidai təhsil səviyyəsində azərbaycanlı şagirdlərdə oxuduğu mətni anlama bacarığı üçün nəzərdə tutulmuş məzmun standartları müqayisəli şəkildə verilmişdir.

Tədqiqatın nəticəsi göstərir ki, əslində, «Azərbaycan dili» fənni üzrə ibtidai siniflərdə oxuduğunu anlama ilə əlaqədar bir əsas standart nəzərdə tutulmamışdır. İbtidai siniflərdə oxu üzrə əsas və alt standartların təhlili göstərir ki, 2.1. əsas standartı və ona bağlı alt standartlar, əsasən, mətndəki yeni sözlərin frazeoloji birləşmələrin mənasının anlaşılmasına xidmət edir, hər 4 sinifdə də 2.1. əsas standartına bağlı 2.1.1. alt standartında ifadə olunan bilik və bacarıq əsas standartla birbaşa əlaqəli deyildir. Məsələn, 4-cü sinifdəki *2.1.1. Mətndəki*

*hadisələri həyat hadisələri ilə müqayisə edir* alt standartı əsas standartda nəzərdə tutulan qarşılaşdığı yeni sözlərin mənasını başa düşmə ilə bilik və fəaliyyət baxımından uyğunlaşmır.

1-ci sinifdəki 2.2.5. *(Mətnin məzmunu nəql edir)* standartı ilə 2-ci sinifdəki 2.2.4. *(Mətnin əsas hissələrini seçib nəql edir)* standartları da *2.2. Oxu bacarıqlarına yiyələndiyini nümayiş etdirir* əsas standartına bağlı olaraq idraki proses baxımından xatırlama səviyyəsində olmasına baxmayaraq, oxuduğunu anlama bacarığından daha çox nəqletmə fəaliyyəti ilə danışma bacarığını inkişaf etdirməyə yönəlmişdir.

Orta səviyyədəki meyarların oxu məzmun standartları ilə müqayisəsi, ibtidai siniflər üzrə oxu alt standartlarının şagirdlərdə uyğunlaşdırma, şərhetmə, birbaşa nəticəçıxarma, mətnin hissələrini müəyyənləşdirmə, mətndən nümunəvermə və s. kimi bacarıqların formalaşmasına şərait yaratmadığını da göstərir.

PİRLS imtahanında yüksək səviyyə üzrə müəyyən edilən *sətraltı verilmiş detalları və mühüm məqamları müyyənləşdirir və fərqləndirir, hadisələr, məqamlar, hisslər, məqsədlər arasındakı əlaqələri açıqlamaq üçün məna çıxarır və bunlara dair mətndən nümunələr verir, hadisələri, obrazların xarakterlərini, mətndəki səciyyəvi xüsusiyyətlərini, hiss və duyğularını əlaqələndirir və şərh edir. Qarışıq cədvəllər və anlaşılması çətin mətnlərdəki məlumatları ayırd edir və müyyənləşdirir, səbəbləri göstərmək və izahatlar vermək üçün məntiqi əlaqələr quraraq nəticə çıxarır, ideyalar arasındakı əlaqələri şərh etmək üçün vizual və mətndəki məlumatları əlaqələndirir* kimi idraki bacarıqların da ibtidai siniflər üzrə oxu alt standartlarında nəzərdə tutulmadığı məlum olmuşdur.

Ən yüksək səviyyə üzrə ölçülməsi nəzərdə tutulan, hadisələrin səbəblərinin şərh olunması, əlaqləndirmə, dəyərləndirmə kimi yüksək idraki bacarıqlar da ibtidai sinif səviyyəsində «Azərbaycan dili» fənni üzrə alt standartlarda nəzərdə tutulmamışdır.

Yuxarıda sadalanan bacarıqların Azərbaycanlı şagirdlərdə formalaşdırılması üçün məzmun standartlarının təkmilləşdirilməsinə, standartların həm dərslik müəllifləri, həm də fənn müəllimləri tərəfindən düzgün şərh edilərək reallaşdırılmasına və tədris prosesinin səmərəliliyinin təmin edilməsi üçün şagirdlər tərəfindən çətin mənimsənilən bacarıqların müəyyən edilərək bu istiqamətdə əsaslı işlər görülməsinə ciddi ehtiyac vardır. Bu məsələlərin müəllim hazırlığı proqramlarında öz əksini tapması, müəllimin bilmədiyi bir şeyi başqasına öyrədə bilməyəcəyi həqiqətinin qəbul edilərək, bakalavriat və magistratura səviyyələrində keyfiyyətli kadr hazırlığı təmin edilməlidir.

## İstifadə edilmiş ədəbiyyat

1. Arı G. (2017), Türkçe dersi öğretim programındakı (ortaokul) okuma kazanımlarının değerlendilirmesi, Ana dili eğitimi dergisi, 5(4), 685-703. Erişim tarihi. 22.02.2018. https://www.researchgate.net/publication/320718746_Turkce_Dersi_Ogretim_Programi%27ndaki_Ortaokul_Okuma_Kazanimlarinin_Degerlendirilmesi. http://connection.ebscohost.com/c/articles/49012731/aligning-theory-assessment-reading-fluency-automaticity-prosody-definitions-fluency.
2. http://timssandpirls.bc.edu/pirls2016/international-results/download-center.
3. http://timssandpirls.bc.edu/pirls2016/international-results/pirls/student-achievement/pirls-achievement-results.
4. Kuhn, M.R, Schüannenflugel P.J. ve Meisinger E.B. (2010), Aligning theory and assessment of reading fluency automaticity, prosody, and definitions of fluency. Reading Research Quaterly, 45(2), 230-251.
5. Martin M.O, Mullis İ.V.S və başqaları. (2017), İnternational Results in Reading, http://timssandpirls.bc.edu/pirls2016/international-results/wp-content/uploads/structure/CompletePDF/P16-PIRLS-International-Results-in-Reading.pdf.
6. Ornstein, A.C., Hunkins, F.P. (2014), Eğitim proqramı temeller, ilkeler, sorunlar. (çevr.ed. A.Arı). Konya Eğitim.
7. Süleymanova A. (2011) Fənn kurikulumlarında məzmun standartı, Kurikulum İslahatı: tədqiqatlar, nəticələr, Mütərcim, Bakı. s. 100-118.
8. TİMSS&PİRLS, İnternational Study Center, Lynch School of Education, Boston College, US.
9. Ümumi təhsilin məzmun standartları (I-XI siniflər), Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Mütərcim, Bakı, 2012.



View publication stats